**Ümumi tarix.**

**9 cu sinif**

**Standart: 3.1.1. ABŞ-ın siyasi inkişaf mərhələsini şərh edir.**

**Təlim nəticəsi: ABŞ –da vətəndaş müharibəsi ərəfəsindəki siyasi vəziyyəti və müharibədən sonrakı inkişafı şərh edir.**

## ABŞ-da vətəndaş müharibəsi (1861-1865)

**Tərif: Vətəndaş müharibəsi nədir?**

Vətəndaş müharibəsi eyni dövlət daxilində mütəşəkkil qruplar arasında müharibədir. Bu termin eramızdan əvvəl 1-ci əsrdə Roma Respublikasında baş verən Bellum sivile (vətəndaş müharibəsi)nin başlaması ilə işlənməyə başlamışdır.

**Vətəndaş müharibəsinin səbəbləri:**

- Şimalla Cənub ştatları arasında iqtisadi inkişaf fərqi
- Şimalda quldarlığın ləğvi,sənayenin inkişafı
- Cənubda kənd təsərrüfatında qul əməyinin hakim olması və quldar plantasiyalarının üstünlüyü
- irqi ayrı-seçkiliyin kəskinləşməsi
- ölkənin sənaye inkişafina quldarlıq mane olduğu üçün abolisionistlər (köləliyin ləğvi tərəfdarları) hərəkatı onun ləğvini tələb edirdi
- Avraam Linkolnın prezident seçilməsilə Cənub quldarları ittifaqdan çıxaraq Konfederasiya yaradıb Cefferson Devisi prezident seçməsi qarşıdurmanı kəskinləşdirdi

**Müharibənin nəticəsi:**

- Şimal ştatlarının qələbəsi
- müharibənin gedişatında “Homstedlər haqqında” qanun və “Azadlıq haqqında bəyannamə” imzalanmsı
- quldarlığın ləğvi “Trestlər əleyhinə” qanunun qəbul edilməsi
- hakimiyyətin burjuaziyanın əlinə keçməsi

**ABŞ-da quldarlığın ləğv edilməsinin əhəmiyyəti nə oldu?**

- kənd təsərrüfatında kapitalizmin “fermer yolunun” inkişafı başladı
- aqrar məsələlər həll olundu
- iqtisadi inkişafa təkan oldu

*Hazırladı: Könül Səfərli*

Təlimə Dəstək Mərkəzi